# Uşaq və gənclərin fiziki və mənəvi inkişafı xüsusi diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Uşaqların və gənclərin mənəvi-əxlaqi tərbiyəsi müasir cəmiyyətin əsas məsələlərindən biridir. Bu fonda ailə, eləcə də ümumtəhsil məktəbi qarşısında baş verənləri müstəqil qiymətləndirməyi bacaran, öz fəaliyyətini ətrafındakı insanların mənafeyinə uyğun qura bilən məsuliyyətli vətəndaş yetişdirmək vəzifəsi durur.**



O vəzifələrin uğurlu icrası ilk növbədə şagird şəxsiyyətinin sabit mənəvi-əxlaqi xassələrinin və keyfiyyətlərinin formalaşması ilə bağlıdır.

### Mənəvi-əxlaqi inkişafın ən təsirli vasitələrindən biri bədən tərbiyəsidir

Real vəziyyətin təhlili göstərir ki, Azərbaycanın ənənəvi dəyərlərinə əsaslanan uşaqların mənəvi-əxlaqi tərbiyəsi aşağıdakılar vasitəsilə həyata keçirməlidir: 1. uşaqlarda mənəvi hisslərin inkişafı (şərəf, vəzifə, ədalət, mərhəmət və dostluq); 2. davranışda ifadə olunan mənəvi mövqeyin, o cümlədən şüurlu şəkildə yaxşını seçmək bacarığının formalaşması; 3. insanlara, o cümlədən əlillərə qarşı empatiyanın inkişafı və müsbət münasibətin formalaşdırılması; 4. uşaqların mənəvi-əxlaqi tərbiyəsi sahəsində dövlət və cəmiyyət, ictimai təşkilatlar və qurumlar, o cümlədən ənənəvi dini icmalar arasında əməkdaşlığın genişləndirilməsi; 5. uşaqlarda müsbət həyat yönümlərinin və planlarının formalaşmasına kömək etmək; 6. müxtəlif çətin həyat vəziyyətlərində, o cümlədən problemli, stressli və konfliktli vəziyyətlərdə davranış nümunələrinin formalaşmasında uşaqlara köməklik göstərmək.

Şübhəsiz ki, uşaqların mənəvi-əxlaqi inkişaf problemlərinin həllinin təsirli vasitələrindən biri bədən tərbiyəsidir. Ümumiyyətlə, bədən tərbiyəsini əxlaqi, mənəvi, estetik inkişafa kömək edən hər hansı digər təhsildən ayırmaq olmaz. Müntəzəm bədən tərbiyəsi dərsləri uşaqlara təkcə hərəkətli bacarıqlara yiyələnməyə və fiziki keyfiyyətləri inkişaf etdirməyə deyil, həm də xasiyyəti təmkinləndirməyə, mənəvi keyfiyyətləri formalaşdırmağa və sağlam həyat tərzinin əsaslarını qoymağa imkan verir. Bədən tərbiyəsi dərsləri əxlaqi təcrübənin zənginləşməsinə töhfə verir, uşağın əxlaqi davranışını formalaşdırır. Nəticədə uşağın düşüncələri, hissləri, əxlaqi keyfiyyətləri, davranışları kimi daxili aləmi formalaşır və inkişaf edir. Qabaqcıl dünya təcrübəsi göstərir ki, bədən tərbiyəsi dərsi keçirilərkən tədris ilinin əvvəlində qarşıya qoyulan məqsəd və vəzifələr nəzərə alınır, burada uşağın mənəvi-əxlaqi şəxsiyyətinin təkmilləşdirilməsi və tərbiyəsi vəzifələrinə aparıcı istiqamət verilir. Bədən tərbiyəsi dərslərində istifadə olunan uşaq açıq hava oyunları, xüsusən də xalq oyunları milli ruhlu tərbiyənin təlqini və uşağın hərtərəfli inkişafı problemini həll etməyə imkan verir. Şagirdlərin oyun fəaliyyətinin düzgün pedaqoji təşkili ənənəvi uşaq oyunlarını, onların vasitəsilə öz xalqının mədəniyyətini yaşatmaq və qoruyub saxlamaq üçün real və səmərəli üsul sayılır. Hərəkət fəaliyyətində əxlaqi keyfiyyətlər məşğələlərin seçilməsi ilə formalaşır, onların həyata keçirilməsi uşağı həmyaşıdları ilə əlaqə qurmaq, ümumi məqsədə çatmaq ehtiyacı qarşısında qoyur. Uşaqlar komandaya aid olduqlarını bilir və davranışlarını idarə etməyi öyrənirlər. Fiziki məşqləri müşayiət edən yüksək emosional stress mənəvi fikirləri hisslərdə, təcrübələrdə, vərdişlərdə möhkəmləndirməyə kömək edir. Bundan başqa, təcrübə göstərir ki, xalq adət-ənənələri ilə tanışlıq məktəbəqədər yaşlarda xüsusilə əhəmiyyətlidir, çünki o, uşağı mənəvi cəhətdən zənginləşdirir, öz xalqı ilə fəxr hissi aşılayır, onun tarixinə və mədəniyyətinə marağı qoruyur, öz mənşəyini öyrənməyə kömək edir. Gənc nəslin mənəvi-əxlaqi inkişafının ayrıca bir sahəsi də hərbi-vətənpərvərlik tərbiyəsidir. Bu səbəbdən gənc nəslin vətənpərvərlik dəyərləri ilə tanış olması, uşaqlarda hərbi xidmət haqqında təsəvvürlərinin formalaşdırılması hər zaman xüssi diqqət mərkəzində olmalıdır. Bu fonda Azərbaycanın müasir inkişafının prioritetlərindən biri gənclərlə işdir. Elə ölkə rəhbərliyi də bu məsələyə xüsusi diqqət yetirir.

### Mənəvi-əxlaqi tərbiyə mürəkkəbdir, amma...

Ölkəmizdə gənc nəslin harmonik tərbiyəsi üçün ildən-ilə imkanlar genişlənir, şərait yaradılır. Və bu zəruridir. Müasir dünyada dövlətlər arasında münasibətlər və təbii ki, yeni informasiya texnologiyaları, internetdə zərərli və təhlükəli ideoloji cərəyanların yayılması, zorakılığa, eqoizmə, cinayətə aludəçilik aşınması gənclərin tərbiyəsinə xüsusi diqqət olunmasını zərurətə çevirir. Müasir dövrdə dünyada bu xüsusda problemlər məsələni daha da aktuallaşdırır. Belə vəziyyətin əhalinin müxtəlif yaş qruplarından olan insanların, hər şeydən əvvəl indiki gənclərin şüuruna mənfi təsiri danılmazdır. Bütün bunlar dövləti və cəmiyyəti narahat etməyə bilməz. Ailənin, məktəbin, lisey və universitetin, bütövlükdə cəmiyyətin vəzifəsi öz ölkəsinin savadlı və mənəvi cəhətdən zəngin, əxlaqi sabit vətəndaşlar yetişdirməkdən ibarətdir. Bunda mühüm rol mənəvi-əxlaqi tərbiyəyə aiddir. Ümumilikdə mənəvi-əxlaqi tərbiyə əxlaqi şüurun məqsədyönlü formalaşdırılması, əxlaqi hisslərin inkişafı, müvafiq davranış bacarıq və vərdişlərinin inkişafıdır. Mənəviyyat mürəkkəb və çoxşaxəli anlayışdır. O, insan şüurunun, təfəkkürünün, inanclarının, mədəni irsinin, bədii dəyərlərinin, adət-ənənələrin, ayinlərinin və dini praktikasının bir çox aspektlərini əhatə edir. Əxlaqi tərbiyə əxlaqi şüurun formalaşdırılması, müvafiq hisslərin inkişafı, analoji davranış bacarıq və qabiliyyətlərinin inkişafı üçün insana mütəşəkkil, məqsədyönlü təsir göstərməkdən ibarətdir. Əxlaq dedikdə ümumbəşəri dəyərləri - dürüstlük, ədalət, alicənablıq, xeyirxahlıq, Vətənə məhəbbət, ailə, cəmiyyət və ölkə qarşısında məsuliyyət və borc hissi, tarixə və əcdadlara hörmət, mərhəmət, həssaslıq, insanpərvərlik, alicənablıq, dostluq, etik standartlar, davranış qaydaları, ətraf mühitin mühafizəsi, mədəni davranış və sair nəzərədə tutulur. Hər bir təhsil kimi mənəvi-əxlaqi tərbiyə də sistemli olmalıdır. Hər bir fəaliyyətin həm müəllimlər, həm də şagirdlər və tələbələr tərəfindən başa düşülən konkret məqsədi olmalıdır. Şagirdlərin mənəvi-əxlaqi tərbiyəsi üçün fəaliyyət növləri və dərslərin formaları müxtəlif, yeniyetmələr üçün maraqlı olmalıdır. Söhbətlər, tələblər, inandırmalar, öyüd-nəsihətlər, tapşırıqlar, mükafat və cəzalar ilk növbədə humanist mahiyyətli və məqsədyönümlü olmalıdır. Müasir dünyada idrak fəaliyyətindən daha dəyərli olan tərbiyə işidir. Tədris fəaliyyətində olduğu kimi, tədris işində də müasir texnologiyalardan və internetdən istifadə edərək şagirdləri həvəsləndirmək və maraqlandırmaq lazımdır.

İnandırmaq, şüur və hisslərə təsir etmək və məşqlərdən istifadə etməklə müsbət keyfiyyətlərin formalaşmasına və mənfi olanların rədd edilməsinə nail olmaq olar. Bütün bunlar mənəvi-əxlaqi tərbiyənin çox mürəkkəb xarakterini göstərir. Amma bu mürəkkəbliyin öhdəsindən layiqncə gəlmək hər bir ölkənin ümdə vəzifəsi, sabirt inkişafının əsas yollarından biridir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**